2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 82 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 14 sentyabr 2024-cü il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 82 saylı İmişli-Saatlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Nəcəfquliyeva Leyla Rəhim qızının seçki günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularına yol verildiyinə, həmin seçki dairəsi dairə seçki komissiyasının 9 sentyabr 2024-cü il tarixli 26/62 saylı qərarının ləğv edilməsinə, seçki dairəsi üzrə nəticələrin etibarsız sayılmasına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 82 saylı şikayətini nəzərdən keçirərkən **müəyyən etdim:**

müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatda nəzərdə tutulan müddətdə və qaydada verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Araşdırma zamanı, 13 sentyabr 2024-cü il tarixdə namizəd Nəcəfquliyeva Leyla Rəhim qızı Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edib, heç bir şikayəti və tələbi olmadığını bildirərək həmin müraciətin araşdırılmasına xitam verilməsini xahiş etmişdir.

Beləliklə, namizəd L.R. Nəcəfquliyevanın ərizəsi nəzərə alınmalı və müraciətin araşdırılmasına xitam verilməlidir.

Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə əsasən **rəyə gəldim :**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 82 saylı İmişli-Saatlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Nəcəfquliyeva Leyla Rəhim qızının 11 sentyabr 2024-cü il tarixli 82 saylı müraciətinin araşdırılmasına xitam verilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov